Azərbaycan sosial dövlətdir

Əhalinin rifah halının yaxşılaşdırılması üçün atılan mühüm addımlar, geniş miqyas alan islahatlar, əldə olunan uğurlar da bunu bir daha təsdiq edir

Azərbaycan dövləti sosialyönümlü siyasəti ilə seçilir. Prezident İlham Əliyevin həyata keçirdiyi strateji kursun əsas məqsədi məhz Azərbaycan vətəndaşının rifahını təmin etmək, onun sosial problemlərinin həllini ön plana çıxarmaqdır. Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və sosial sahədə ildən-ilə geniş miqyas alan islahatlar, atılan mühüm addımlar, əldə olunan böyük sosial uğurlar da bunu bir daha təsdiq edir.



Müasir müstəqil Azərbaycan dövlətini quraraq onu uzunmüddətli inkişaf yoluna səfərbər edən Ümummilli Lider Heydər Əliyev eyni zamanda ölkəmizin sosial inkişaf strategiyasını formalaşdırıb, müasir və dayanıqlı sosial müdafiə sisteminin qurulması üçün mühüm addımların atılmasını təmin edib. Ulu Öndərimizin müdrik və uzaqgörən siyasətini yüksək səviyyədə davam etdirən, müstəqil dövlətimizi dinamik inkişaf yolunda daim irəli aparan və möhtəşəm Zəfər zirvəsinə yüksəldən Prezident İlham Əliyevin güclü sosial siyasəti, uğurlu sosial islahatlar proqramı ölkədə sosial inkişafın davamlı xarakter almasına, vətəndaş rifahının təminatı sahəsində mühüm nailiyyətlərin əldə olunmasına imkan verib.



"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır". Ölkə Prezidentinin bu sözləri onun tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən, o cümlədən son illər bir-birinin ardınca reallaşdırılan, hər biri neçə-neçə vətəndaşın rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatlarda aydın və əməli təsdiqini tapır. Buna nümunə olaraq dövlətimizin başçısının fərman və sərəncamları əsasında 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icra olunmasını, bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılmasını göstərmək olar. Həmin dövrdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfəyədək, median əməkhaqqında 2,2 dəfə, əməkhaqqı fondunda 3 dəfə, əmək müqavilələrinin sayında 609 min (48 faiz) artımın olduğunu görürük.

Xüsusilə vurğulamaq lazımdır ki, istər COVID-19 pandemiyası, istərsə də müharibə dövründə və ya digər maliyyə tutumlu xərclərin artdığı dövrlərdə belə Azərbaycanda sosial xərclər azaldılmayıb, əksinə, artırılıb. Bunun bariz nümunəsi olaraq 5-ci böyük sosial islahat paketi elan edildi. Prezident İlham Əliyevin ötən il dekabrın 23-də imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncam bir daha göstərir ki, dövlət siyasətinin əsas prioriteti vətəndaşların rifahının artırılmasıdır və bu istiqamətdə aparılan sosial islahatlar ardıcıl şəkildə davam etdirilir. Yeni Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, fevralın 1-dən isə əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılıb.

Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. Azərbaycanda əhalinin sosial rifahının təmin olunması istiqamətində dövlət siyasətinin əsas prioritetlərindən biri sosialyönümlü xərclərin artırılmasıdır. Bu, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin əməli nəticəsi olaraq özünü büdcə göstəricilərində də aydın şəkildə büruzə verir. Məsələn, 2021-ci ildə dövlət büdcəsində sosialyönümlü xərclər 10,3 milyard manat təşkil edirdisə, 2024-cü il üçün bu məbləğ 15,5 milyard manata çatdırılıb, 2025-ci ilin büdcə layihəsində isə 16,9 milyard manat nəzərdə tutulur. Bu göstəricilər qısa müddətdə sosial xərclərin 6,6 milyard manat və ya 1,6 dəfə artdığını göstərir. Sosialyönümlü xərclərin dövlət büdcəsində çəkisinin 41 faizə çatması isə sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiqləyir. Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Buna nümunə olaraq əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 mlrd. manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 mlrd. manat təşkil edirdisə, hazırda 2,5 mlrd. manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən 130-a çatdırılıb.

Yeni sosial islahat paketində digər sosial ödənişlərin də artırılması nəzərdə tutulur. 2018-2024-cü illər ərzində müavinət və təqaüd ödənişlərində 5 dəfə artım qeydə alınıb və 2024-cü ilin sonundakı Sərəncama əsasən, bu artım dinamikası 2025-ci ildə də davam etdiriləcək. Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının 2025-ci ilin yanvarından etibarən orta hesabla 15 faiz artırılması da bu istiqamətdə atılan mühüm addımlardan biridir. Bunlarla yanaşı, 2025-ci il üçün təsdiq edilən qanunlarla yaşayış minimumu və ehtiyac meyarının 270 manatdan 285 manata çatdırılması da sosial təminat sisteminin daha da gücləndirilməsi məqsədi daşıyır.

Cari ilin əvvəlindən həyata keçirilən yeni sosial islahat paketi Azərbaycanın sosial inkişafı və vətəndaşlarının rifahının artırılması məqsədi daşıyır. Bu paket pensiyaların indeksləşdirilərək artırılması da daxil olmaqla, ümumilikdə 3 milyon insanı əhatə edəcək. Həmin şəxslərə yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün əlavə olaraq 1,4 milyard manat ayrılıb. Sosial islahatlar çərçivəsində, 2018-2025-ci illər ərzində sosial ödənişlərin artırılması məqsədilə ayrılan əlavə illik vəsaitin həcmi 7,6 milyard manata çatdırılıb. Bu vəsait vətəndaşların sosial təminatının daha da gücləndirilməsi və ölkədəki sosial rifah modelinin davamlı inkişafı üçün mühüm mənbə təşkil edir. Dövlətin sosial siyasətində bu cür vəsait ayrılması, iqtisadi inkişafın paralel olaraq sosial sahənin inkişafına da xidmət etməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu yanaşma Azərbaycan Hökumətinin iqtisadi və sosial siyasətdə balanslı və uzunmüddətli inkişafı təmin etməyə çalışdığını göstərir.

Əməkhaqlarının artırılmasında xüsusi məqama diqqət yetirmək vacibdir ki, minimum əməkhaqqının artımı yalnız aşağı maaşlı işçilərə təsir etməklə kifayətlənmir. Bu artım nəticəsində dövlət müəssisələrində çalışan bütün işçilərin əməkhaqları Vahid Tarif Cədvəlinə uyğun olaraq artırılır. Bu isə sosial siyasətin ədalət prinsipi əsasında həyata keçirildiyini və hər bir işçinin əməkhaqqının uyğun səviyyədə yüksəldilməsinin təmin olunduğunu göstərən mühüm göstəricidir. Bu artımlarla birgə 2018-ci ildən bəri minimum əməkhaqqı 3,1 dəfə, minimum pensiya isə 3 dəfəyə yaxın artırılıb. Yeni sosial islahat paketində digər sosial ödənişlərin də artırılması nəzərdə tutulur. Bununla bağlı Nazirlər Kabineti sosial müavinətlərin və təqaüdlərin məbləğinin artırılması üzrə təkliflərini 3 ay ərzində ölkə Prezidentinə təqdim edəcək. Beləliklə, sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı və digər sahələri əhatə edən 19 pilləli Vahid Tarif Cədvəlinə əsasən maaşlarda ciddi artımlar tətbiq olunacaq. Nəticədə bu sosial paket ümumilikdə 3 milyon vətəndaşı əhatə edəcək və artımlar üçün illik əsasda əlavə olaraq 1,4 milyard manat vəsait ayrılacaq.

Artım digər pillələrdə də maaşların orta hesabla 16 faizədək artırılmasına imkan yaradıb. Beləliklə, yalnız minimum əməkhaqqı artımına uyğun olaraq 700 min nəfərə qədər işçinin maaşında artım baş verib. Eyni zamanda, dövlət orqanlarında çalışan dövlət qulluqçusu olmayan işçilərin maaşları, büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri də artırılıb. Bu artımlar əməkhaqqı səviyyəsi müxtəlif olan işçilərin həyat şəraitinin yaxşılaşdırılmasına və daha ədalətli əmək bazarının formalaşmasına yönəlib. Minimum əməkhaqqının artırılması yalnız aşağıgəlirli təbəqənin maddi rifahını yüksəltməkdən daha geniş təsirə malik olub.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti minimum əməkhaqqından aşağı əməkhaqqı qeyd edilən əmək müqavilələrinə qanunvericiliyin tələblərinə uyğun olaraq dəyişiklik edilməsi ilə bağlı "Əmək və Məşğulluq" altsistemi üzərindən işəgötürənlərə müraciət edib. Müraciətdə bildirilib ki, Prezident İlham Əliyevin 23 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən minimum aylıq əməkhaqqının məbləği 2025-ci il yanvarın 1-dən 400 manat müəyyən edilib. Aylıq iş vaxtı normasını işləyən və əmək funksiyasını yerinə yetirən işçinin aylıq əməkhaqqı da 2025-ci il yanvarın 1-dən həmin məbləğdən az ola bilməz. Ona görə də Dövlət Əmək Müfəttişliyi Xidməti minimum aylıq əməkhaqqından aşağı əməkhaqqı qeyd edilmiş əmək müqavilələrinə qanunvericiliyin tələblərinə uyğun olaraq dəyişiklik edilməklə "Əmək və Məşğulluq" altsisteminə daxil edilməli olduğunu işəgötürənlərin diqqətinə çatdırır. Nazirliyin "Əmək və Məşğulluq" altsistemi vasitəsilə bu sahədə vəziyyətə mütəmadi nəzarət olunur. Əmək müqavilələrinə dəyişiklik edilməsi və ya xitam verilməsi barədə bütün məlumatlar həmin altsistemdə öz əksini tapır. Bu altsistem əmək müqavilələri üzrə müəyyən edilmiş bütün əməkhaqları üzrə məlumatları real vaxt rejimində izləməyə imkan verir. Qeyd edək ki, İnzibati Xətalar Məcəlləsinin 192.3-cü maddəsinə əsasən işçiyə minimum aylıq əməkhaqqından aşağı məbləğdə əməkhaqqı verilməsi inzibati məsuliyyətə səbəb olur. Minimum əməkhaqqının artırılması ilə əlaqədar işçilərin hüquqlarının qorunması və işəgötürənlərin qanunvericiliyə riayət etmələri təkcə sosial ədalət prinsipini deyil, həm də ölkə iqtisadiyyatının daha şəffaf və dayanıqlı olmasını təmin edir. Azərbaycan dövləti əmək bazarında daha ədalətli şəraitin yaradılması və işçilərin hüquqlarının qorunması istiqamətində mühüm addımlar atır, bu da ümumilikdə sosial rifahın artmasına xidmət edir.

Prezidentin digər Sərəncamı ilə isə bu aydan etibarən ehtiyac meyarı 285 manata çatdırılıb. Ehtiyac meyarının artırılması ünvanlı sosial yardım proqramı çərçivəsində vətəndaşlarımızın aldığı yardım məbləğinin bu ildən artmasına səbəb olacaq. Bu 900 manat gəliri olan və 5 üzvü olan ailədə aylıq sosial yardım məbləğinin orta hesabla 450 manatdan 525 manatadək yüksəlməsi deməkdir. Artımların ödənilməsinə gəldikdə isə, yeni ehtiyac meyarı ünvanlı sosial yardım proqramı çərçivəsində yeni yardım almağa başlayanlara şamil olunacaq.

Son illərdəki təcrübə göstərir ki, orta aylıq əməkhaqqında davamlı və ciddi artımlar pensiyaların indeksləşdirilərək artırılması göstəricisinin daha yüksək olmasına imkan yaradıb. 2023-cü ildə pensiyaların artımı 14,7 faiz, 2024-cü ildə isə 11,2 faiz təşkil edib. Bu artımlar pensiyaçıların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində mühüm rol oynayıb və gələcəkdə də bu artım tendensiyasının davam edəcəyi gözlənilir.

Ümumilikdə pensiyalar üzrə ayrılan illik vəsait 2018-ci ildən bəri 2 dəfə artıb. Bu artım ölkənin sosial siyasətinin nə qədər uğurla həyata keçirildiyini və dövlətin pensiyaçıların rifahını daim artırmaq üçün böyük səy göstərdiyini göstərir. Dövlətin pensiya ödənişlərinə ayırdığı vəsaitin artması gələcəkdə də sosial təminatın gücləndirilməsinə və ölkə üzrə rifah səviyyəsinin yüksəlməsinə xidmət edəcək.

Prezident İlham Əliyev yanvarın 7-də yerli telekanallara verdiyi müsahibəsində jurnalistlərin müxtəlif mövzularda ünvanladıqları suallara cavab verərkən xüsusi olaraq vurğuladı: "İqtisadi imkanlar artdıqca biz daim sosial məsələlərin həllinə - minimum əməkhaqqı, pensiya, sosial müavinətlərin artırılması məsələlərinə də daim diqqət göstərəcəyik". Bu fikirlər dövlətimizin başçısının sosial siyasətə verdiyi yüksək önəmin və bunun ardıcıl şəkildə davam etdirilməsinin göstəricisidir. Bu yanaşma ölkənin iqtisadi inkişafından doğan imkanların, ilk növbədə, vətəndaşların sosial rifahının yaxşılaşdırılmasına yönəldilməsi prinsipini əks etdirir. Prezidentin sözləri bir daha göstərir ki, sosial məsələlərin həlli yalnız iqtisadi göstəricilərlə bağlı deyil, eyni zamanda, dövlət siyasətinin əsas prioritetlərindən biridir. İqtisadi artımla paralel olaraq sosial təminatların yüksəldilməsi və əhalinin sosial rifahının davamlı şəkildə yaxşılaşdırılması ölkənin inkişaf modelinin əsasını təşkil edir.

Mustafa KAMAL,
"Respublika".